**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI SƏDRİNİN**
**yanında keçirilmiş iclasın**
**QƏRARI**

**Bakı şəhəri** **№ 1/3** **3 iyul 2013-cü il**

**Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi tərəfindən bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsinə dair hazırlanmış Qaydaların Palatanın internet səhifəsində yerləşdirilməsi barədə**

Auditorlar Palatası sədrinın elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbovun Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi tərəfindən bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsinə dair hazırlanmış Qaydaların Palatanın internet səhifəsində yerləşdirilməsi barədə xidməti məktubunu müzakirə edərək,

**QƏRARA ALINIR:**

1. Auditorlar Palatasının elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbovun Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi tərəfindən bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsinə dair hazırlanmış Qaydaların Palatanın internet səhifəsində yerləşdirilməsi barədə xidməti məktubu nəzərə alınsın (əlavə olunur).
2. Auditin təşkili və tənzimlənməsi idarəsinin rəisi M.Hacıyevin bu məsələyə dair təqdim etdiyi normativ sənədlərin (əlava olunur) Palatanın internet səhifəsində yerləşdirilməsi barədə təklifi müsbət qiymətləndirilsin.
3. Bu qərarın 1-ci və 2-ci bəndlərində göstərilən Qaydaların və müvafiq sənədlərin auditin təşkili və tənzimlənməsi sahəsində zəruriliyini nəzərə alaraq onların Palatanın internet səhifəsində yerləşdirilməsi məqsədəmüvafiq hesab edilsin.
4. Aparatın informasiya texnologiyaları üzrə mütəxəssisi R.Ələkbərova tapşırılsın ki, həmin Qaydaları və müvafiq sənədləri Palatanın internet səhifəsində yerləşdirsin.

**İCLASIN SƏDRİ** **V.NOVRUZOV**

**İCLASIN KATİBİ** **A.KƏRİMOV**